# ABŞ üzrə Böyük Onluq Akademik Ittifaqın üzvü olan İllinoys Universitetinin kitabxanası

6 Sentyabr, 2019
133


Avqustun 15-də İllinoys Universitetinin kitabxanasına səfər etdim. 1857-ci ildə qurulan ali təhsil ocağı İllinoys ştatının ən qədim universitetidir. Bu il universitetin 162 yaşı tamam olur.

İllinoys Universiteti, İllinoys ştatının Champaign şəhərində yerləşən yüksək reytinqli bir universitetdir. İllinoys universiteti 32.613 bakalavr, ümumilikdə 47 min sayda tələbəsi olan böyük bir təhsil müəssisəsidir. İllinoysda qəbul nisbəti 62% olduğu üçün qəbul bir qədər rəqabətlidir. Məşhur ixtisaslar arasında Tədqiqat və Eksperimental Psixologiya, İqtisadiyyat və Mühasibatlıq var.

İllinoys Universitetinin kitabxanasının elm sahələri üzrə qruplaşan 28 kitabxanası, elmi tədqiqat resurs mərkəzləri vardır. Kitabxana: 14 milyon kitab, 24 milyon sayda digər informasiya resursu, 8 milyon mikro formatlı material, 120 min serial nəşrlər, 148 min audio səs yazısı, 930 min audio – video materialı, 280 min e-kitab, 120 min kino kolleksiyasi, milyonlarla nüsxə əlyazma materialı və 650 min xəritə fonduna malikdir.

Milner Kitabxanası İllinoys Dövlət Universitetinin tədris, öyrənmə, tədqiqat və xidmət fəaliyyətlərində fəal tərəfdaşıdır. Milner kitabxanaçıları tələbə və müəllim heyətinin ehtiyaclarını ödəmək üçün xüsusi olaraq tədqiqat yardımı və kitabxana təlimatı verirlər. İstinad kolleksiyalarına indekslər, kitablar, lüğətlər, biblioqrafiyalar, biblioqrafik və tam mətn məlumat bazaları daxil olmaqla ümumi, habelə mövzuya aid çap və elektron tədqiqat vasitələri daxildir.Tarix boyu kitabxana beş binada məskunlaşmış və 1976-cı ildə mövcud obyektə köçürülmüşdür. İndiki bina 1890-1928-ci illərdə ilk universitet kitabxanaçısı olan Angeline Vernon Milnerin şərəfinə adlandırılmışdır.

Morris Kitabxanası Cənubi İllinoys Universitetinin Carbondale şəhərciyi üçün əsas kitabxanadır. Kitabxanada 2.6 milyondan çox cild, 43.000 cari dövri nəşr və seriallar, 3.6 milyondan çox mikroform vahidi var. Morris Kitabxanası, həmçinin, dövlət avtomatlaşdırılmış kitabxana sisteminə və bir sıra elektron mənbələrə girişi təmin edir.

SIU (Southern Illinois University) Hüquq Kitabxanası vəkillər, hüquqşünaslar, SIU Hüquq kitabxanası müəllimlər, işçilər və icma istifadəçiləri üçün hüquqi tədqiqat mənbələri verir. Lesar Hüquq Binasında yerləşən kitabxana, geniş qanuni elektron sənədlərə sərbəst çıxışı təmin etməklə, hüquqi araşdırmaların dəyişən təbiətinə və istifadəçi gözləntilərinə cavab vermək üçün inkişaf etmişdir.

İlinoys Universiteti kitabxanası İlinoys ştatı üzrə Kitabxana Şurasının üzvüdür. Şurada:

kitabxanalarının vəzifəsi, mədəni və texnoloji cəhətdən üstün bir şəraitdə öyrənməyə və biliklərin artırılmasına imkan verən inovativ və etibarlı məlumat mühiti yaratmaq və dəstəkləməkdir. Kitabxanalarının kollektivi kəşf, dialoq, öyrənmə və insan ruhunu inkişaf etdirən innovativ xidmətlər, proqramlar, məkan, strategiya və sistemlərin inkişafına sadiqdir.

İllinois Universiteti kitabxanasında daha cox diqqətimi çəkən məqam iki mərkəzin fəaliyyət funksiyası oldu. Bu mərkəzlərdən biri: İnformasiya İstifadəsi və Sərbəstlik mərkəzi. Mərkəzinin rolu, informasiyanı universitetin bütün sahələrinə yaymaq və inteqrasiya etməkdir. Mərkəz, kitabxananın tədris və tədris təşəbbüslərinə proqramlaşdırma, ortaqlıq, kurikulum və peşəkar inkişaf yolu ilə rəhbərlik etməklə yanaşı, İllinoys Ştatı və kitabxananın istifadəçisi, hər bir tələbə, müəllim və işçi heyəti məlumat axıcılığının əsas elementlərini bütün aspektlərə mənimsəməsini və birləşdirməsini təmin edir.

Şərqi Avropa, Orta Asiya və Qafqazşünaslıq üzrə resurs mərkəzi: bu mərkəzdə tədqiqat qrupları regionlar üzrə məlumat toplayıb, elmi baza kimi universitetin kitabxana kolleksiyasina daxil edirlər.
Mərkəz digər dünya universitet kitabxana tədqiqatçıları üçün iyun-avqust aylarında "Kitabxana əməkdaşlıq və tədqiqat" layihəsi çərçivəsi ilə yay məktəbləri təşkil edir.

Görüşdə ADU kitabxanası və İlinoys kitabxanası Şərqi Avropa, Orta Asiya və Qafqazşünaslıq üzrə resurs mərkəzi birgə əməkdaşlıq çərçivəsində : kitabxanalarımız arasında əməkdaşların birgə treninq,distant təlim və konfransların keçirilməsi,qarşı tərəf kimi Azərbaycanın tarixi, tarixi şəxsiyyətləri haqqında materialların toplanması və lazımi məlumatların biblioqrafik təsvirlərinin işlənməsi və "İpək Yolu"

layihəsinə qoşulmaq kimi bizim təkliflər onlar üçün çoxdan gözlənilən və cox dəyərli məlumat olduğu vurğulandı.

İllinois Universiteti kitabxanasının öz nəşriyyatı var.Görüş zamanı ADU akademik yazılarının və İllinoys akademik yazıların qarşılıqlı nəşr edilməsi təklifi də müzakirə olundu.

İlinoys Universiteti kitabxanasının dekanı, professor Jon Uilkin qarşılıqlı əməkdaşlıq təklifini, informasiya mübadiləsini pozitiv və böyük maraqla qarşıladı.

Görüş, gələcək əlaqələrin inkişafı və davam etdirilməsi ümidi ilə yekunlaşdı.

**Cəmilə Əliyeva**
**ADU-nun kitabxanasının müdir müavini**

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
ADU


DANIEL CHESTER FRENCH 1850 – 1931
THE GALLAUDET GROUP, 1888
ORIGINAL PLASTER MODEL FOR THE BRONZE
MONUMENT, INSTALLED ON THE GROUNDS OF
GALLAUDET UNIVERSITY, WASHINGTON, D.C.,
WITH A SECOND CAST AT THE AMERICAN
SCHOOL FOR THE DEAF, HARTFORD,
CONNECTICUT. IT REPRESENTS DR. GALLAUDET
TEACHING HIS FIRST PUPIL, ALICE COGSWELL.
THIS WAS PRESENTED BY THE SCULPTOR
TO TAFT IN 1926 AND WAS ACQUIRED BY THE
UNIVERSITY WHEN HE PURCHASED THE CONTENTS
OF HIS STUDIO AFTER HIS DEATH IN 1936.


THIS BOX
A BOOK DROP
The Book Drop


Literature and Languages
LIBRARY
PAPER












KATHARINE
SHARP
FOUNDER AND DIRECTOR OF
THE ILLINOIS LIBRARY SCHOOL
NOBILITY OF CHARACTER AND GRACE OF PERSON WERE UNITED WITH INTELLECTUAL VIGOR AND SCHOLARLY ATTAINMENTS SHE INSPIRED HER STUDENTS AND ASSOCIATES WITH SOUND STANDARDS OF LIBRARIANSHIP AND IDEALS OF SERVICE


THE RARE BOOK & MANUSCRIPT
OPEN








3



AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
ADU